**«25» iyun 2021-ci il tarixli № 11-li müqaviləyə əsasən aparılmış auditin nəticəsinə dair auditorun yekun sənədlərinin**

**TƏHVİL-QƏBUL AKTI**

**Bakı şəhəri** **«29» iyun 2021-ci il**

Biz, aşağıda imza edənlər, **icraçı** - Sərbəst auditor Pənahov Novruz və **sifarişçi** – "MFX-TRADİNG İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin direktoru Abdullayev Zahir Dünyamalı oğlu təsdiq edirik ki, Cəmiyyət ilə bağlanılmış **«25» iyun 2021-ci il tarixli № 11-li** müqavilənin şərtlərinə uyğun olaraq aparılmış auditor xidməti tam şəkildə yerinə yetirilmişdir.

Auditin nəticəsinə görə sifarişçiyə aşağıdakı qaydada sənədlər təhvil verilmişdir:

1. Auditor hesabatı
2. Hesabata əlavələr
3. Müqavilə 4 vərəq
4. Təhvil-Qəbul aktı 1 vərəq

**Təhvil verdi:**

**İcraçı**
Sərbəst Auditor

Pənahov Novruz

**Təhvil aldı:**

**Sifarişçi**
"MFX-TRADİNG İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin direktoru

Abdullayev Zahir

**MÜSTƏQİL AUDİTORUN HESABATI (RƏY)**

**"MFX-TRADİNG İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyinə**
**VÖEN 1405235131**

Mən, **"MFX-TRADİNG İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin** 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və zərər, məcmu gəlirlər , kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.
Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları **"MFX-TRADİNG İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin** 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (və ya düzgün və ədalətli təsəvvür yaradır).
Audit təqdim olunmuş sənədlər əsasında aparılmışdır. Təqdim olunmuş sənədlərin düzgünlüyünə təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

**Rəy üçün əsaslar**
Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatım "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq **"MFX-TRADİNG İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətindən** asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**
Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik **"MFX-TRADİNG İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti**-ni ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik **"MFX-TRADİNG İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin** fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər **"MFX-TRADİNG İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin** maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.